**UDC:** 32.; 323.; 324.; 329.
**LBC:** 60.81; 60.82; 60.88
**MJ №** 294
10.33864/2617-751X.2025.v8.i3.244-254

# PARLIAMENTARY OVERSIGHT IN THE CONTEXT OF SEPARATION OF POWERS

**Ali Eyvazov***

**Abstract.** This paper explores the role and significance of parliamentary oversight within the fundamental principles of the theory of separation of powers. Alongside a discussion of the theoretical foundations of parliamentary oversight in classical separation of powers, its historical roots are also addressed. From both legal and political perspectives, the oversight functions of parliament and its place in the legislative system are analyzed in connection with democratic principles. The parliament, as an elected and representative body, expresses the will of the people through the adoption of laws and realizes popular sovereignty, while also focusing on control and checks-and-balances mechanisms necessary for the implementation of those laws. The political foundations of parliamentary oversight over the executive are examined within the framework of classical separation of powers, and its historical roots are analyzed in relation to parliamentary functions, institutional development, and historical struggles. Furthermore, the paper discusses how parliamentary oversight functions in different political systems today.

**Keywords:** parliamentary oversight, separation of powers, legislation, executive power, principle of parliamentary supremacy

---

* PhD student at the “Department of Political Science and Sociology”, Baku State University; Baku, Azerbaijan
E-mail: eyvazli.ali@mail.ru
https://orcid.org/0009-0006-2302-7654

**To cite this article:** Eyvazov, A. [2025]. PARLIAMENTARY OVERSIGHT IN THE CONTEXT OF SEPARATION OF POWERS. *“Metafizika” journal, 8*(3), pp.244-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.244-254

***Article history:***
*Received: 25.03.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.; 324.; 329.
**ББК:** 60.81; 60.82; 60.88
**MJ №** 294
10.33864/2617-751X.2025.v8.i3.244-254

# ПАРЛАМЕНТСКИЙ КОНТРОЛЬ В КОНТЕКСТЕ РАЗДЕЛЕНИЯ ВЛАСТЕЙ

**Али Эйвазов***

**Абстракт.** В данной статье исследуются роль и значение парламентского контроля в рамках основных принципов теории разделения властей. Помимо теоретических основ парламентского контроля в классическом разделении властей, рассматриваются также его исторические корни. С юридической и политической точки зрения анализируются функции парламентского контроля и его место в законодательной системе в контексте демократических принципов. Парламент, как избранный и представительный орган, выражает волю народа через принятие законов и реализует народный суверенитет, при этом уделяя внимание механизмам контроля и сдержек и противовесов, необходимым для реализации этих законов. Политические основы парламентского контроля над исполнительной властью рассматриваются в рамках классического разделения властей, а его исторические корни анализируются в связи с функциями парламента, институциональным развитием и историческими борьбами. Кроме того, в статье обсуждается функционирование парламентского контроля в различных политических системах сегодня.

**Ключевые слова:** парламентский контроль, разделение властей, законодательство, исполнительная власть, принцип верховенства парламента

---

* Докторант кафедры политологии и социологии, Бакинский Государственный Университет; Баку, Азербайджан
E-mail: eyvazli.ali@mail.ru
https://orcid.org/0009-0006-2302-7654
**Цитировать статью:** Эйвазов, А. [2025]. ПАРЛАМЕНТСКИЙ КОНТРОЛЬ В КОНТЕКСТЕ РАЗДЕЛЕНИЯ ВЛАСТЕЙ. *Журнал «Metafizika», 8(3),* с.244-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.244-254

***История статьи:***
*Статья поступила в редакцию: 25.03.2025*
*Отправлена на доработку: 28.04.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 324.; 329.
**KBT:** 60.81; 60.82; 60.88
**MJ №** 294
10.33864/2617-751X.2025.v8.i3.244-254

# HAKİMİYYƏT BÖLGÜSÜ KONTEKSTİNDƏ PARLAMENT NƏZARƏTİ

**Alı Eyvazov***

**Abstrakt.** Bu yazıda, hakimiyyət bölgüsü nəzəriyyəsinin əsas prinsipləri daxilində parlament nəzarətinin rolu və əhəmiyyəti araşdırılır. Klassik hakimiyyət bölgüsü prinsipində parlament nəzarətinin nəzəri əsasları ilə yanaşı, həm də tarixi kökləri də qeyd edilir. Həm hüquqi, həm də siyasi baxımdan parlament nəzarətinin təminatçı funksiyaları, onun qanunvericilik sistemindəki yeri demokratiya prinsipləri ilə əlaqələndirilmiş olaraq təhlil edilir. Seçkili və təmsilçi orqan kimi xalqın iradəsini ifadə edən parlamentin qanunlar qəbul edərək xalq suverenliyini reallaşdırması və eyni zamanda bu qanunların icra edilməsi üçün nəzarət və balansqurma mexanizmləri üzərində dayanılır. İcra hakimiyyəti üzərində parlamentar nəzarətin siyasi əsasları klassik hakimiyyət bölgüsü prinsipləri çərçivəsində nəzərdən keçirilmiş, onun tarixi kökləri isə parlamentin həm də yaranma səbəbləri olan klassik funksiyaları və tarixi mübarizə nəticəsində təşkilatı-funksional cəhətdən təkamülü ilə əlaqədar təhlil edilmişdir. Həmçinin, müasir dövrdə demokratiyanın əsas göstəricilərindən biri olaraq parlament nəzarətinin fərqli siyasi sistemlərdə necə fəaliyyət göstərdiyi və onun effektivliyinə təsir edən amillər müzakirə edilir.

**Açar sözlər:** parlament nəzarəti, hakimiyyət bölgüsü, qanunvericilik, icra hakimiyyəti, parlamentin aliliyi prinsipi

* Bakı Dövlət Universitetinin “Politologiya və Sosiologiya kafedrası”nın doktorantı; Bakı, Azərbaycan
E-mail: eyvazli.ali@mail.ru
https://orcid.org/0009-0006-2302-7654
**Məqaləyə istinad:** Eyvazov, A. [2025] HAKİMİYYƏT BÖLGÜSÜ KONTEKSTİNDƏ PARLAMENT NƏZARƏTİ. *“Metafizika” jurnalı, 8*(3), səh.244-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.244-254

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.04.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Hakimiyyət bölgüsü prinsipi çağdaş demokratik idarəetmənin əsas dayaqlarından biri hesab olunur və bu prinsipin səmərəli işləməsi üçün qanunverici, icraedici və məhkəmə hakimiyyətləri arasında balans mexanizmlərinin mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Parlament nəzarəti isə bu balansın qorunmasında əsas vasitələrdən biri olub, qanunverici orqanın icra hakimiyyətinin fəaliyyətini izləməsi və qiymətləndirməsi funksiyasını əhatə edir. Parlament nəzarətinin nəzəri əsasları 17-18 -ci əsrlərin siyasi-fəlsəfi fikirlərində aktual olmuş, xüsusilə Con Lokk və Şarl Lui Monteskye tərəfindən işlənib hazırlanmışdır. Bu yanaşmalara görə, parlament təmsilçilik prinsipi əsasında xalqın iradəsini ifadə edən ali qurum rolunda çıxış edir. Hakimiyyətin legitimliyi xalqın vahid iradəsinə əsaslandığından, parlament bu iradəni qanun şəklində ifadə etmək səlahiyyətinə malikdir. Qanunverici hakimiyyətin qanunlar yaratmaq səlahiyyəti ona digər hakimiyyət qollarının fəaliyyətini nəzarət altında saxlamaq imkanı yaradır. Qanunların ümumi məcburiliyi icra hakimiyyətini onların həyata keçirilməsinə vadar edir və eyni zamanda məhkəmə hakimiyyəti üçün hüquqi baza rolunu oynayır. Məhz bu cəhətlər qanunverici orqanın dövlət idarəçiliyində və hakimiyyətin digər qolları ilə qarşılıqlı münasibətlərində üstün mövqeyini müəyyənləşdirir. Parlament nəzarətinin müxtəlif üsulları - hökumət üzvlərinə ünvanlanan sorğular, büdcənin təsdiqlənməsi, impiçment mexanizmi və digər nəzarət vasitələri icra hakimiyyətinin şəffaflıq, hesabatlılıq və qanunçuluq prinsiplərinə uyğun fəaliyyət göstərməsini təmin edir.

## 2.Parlament nəzarətinin əsasları

Hakimiyyət bölgüsü prinsipi monarxa qarşı mübarizənin gedişatında onun əsas ideya dayağı kimi ortaya çıxmış və uzun bir tarixi inkişaf yolu keçmişdir. Monarxın mütləq hakimiyyətinin məhdudlaşdırılması, iqtidarın başqa bir iqtidarla, xalq suverenliyini təmsil edən institutla balanslaşdırılması Avropada maarifçilik hərəkatı dönəmində siyasi ədəbiyyatda işlənən əsas mövzuya çevrildi. Hakimiyyətdən sui-istifadənin qarşısının alınması, hökumətin hesabatlılığının təmin edilməsi, qanunun aliliyi və fərdi azadlıqların qorunması üçün həlledici mexanizm kimi hakimiyyət bölgüsü prinsipi konsepsiya halına salındı. Əslində, bu ideyaların kökləri daha qədimə, antik dövr yunan demokratiyasına və aristokratik Roma respublikasına qədər uzanır. Afina demokratiyası nümunəsindən çıxış edən Aristotel hakimiyyət bölgüsünün vacibliyini vurğulayaraq onu politoloji ədəbiyyata gətirən ilk müəllif olmuşdur. Pelopennes müharibələrindən sonra zəifləmiş siyasi sistemi tiraniyadan qurtarmaq üçün təklif etdiyi dövlət modelində Aristotel idarəetməni qanun tərtib edən orqan, vəzifələr (inzibati) və məhkəmə hakimiyyətləri kimi hissələrə ayırmışdı [Чанышев, 1987. s.173]. Antik Yunan

və Roma cəmiyyətlərində təcrübədən keçirilmiş hakimiyyətin bölgüsü prinsipi antik sivilizasiyanın hər sferada inkişafına səbəb olmuş ən böyük tarixi nəaliyyəti hesab edilə bilər [Eyvazov, 2025. №1, 151-159].

Siyasi-hüquqi ədəbiyyatda parlament nəzarətinin vacibliyi nəzəri baxımdan parlamentin üstünlüyü prinsipi ilə əlaqələndirilir. Hakimiyyət bölgüsündə qanunverici orqanın nə üçün üstün mövqeyə sahib olması və onun digər hakimiyyət strukturlarına nəzarət etmə səlahiyyətini bir neçə **faktorla** əsaslandıra bilərik. Əsasən 17-18-ci əsrlərdə formalaşmış siyasi-hüquqi doktrinalar çərçivəsində parlamentin suverenliyi və ya üstünlüyü anlayışı onun nümayəndəlik xarakteri ilə **xalq hakimiyyətini təmin etməsi** və hakimiyyət bölgüsü prinsipi ilə sıx bağlıdır. Müasir dövrdə xalq hakimiyyəti anlayışı bütün dövlət hakimiyyətinin xalqa məxsus olmasını və həmin hakimiyyətin xalq tərəfindən öz suveren iradəsinə və fundamental maraqlarına tam uyğun şəkildə sərbəst həyata keçirilməsini ifadə edir. Xalq hakimiyyəti siyasi iqtidarın xalq tərəfindən formalaşdırılması, legitimləşdirilməsi və nəzarət altında saxlanılmasını ehtiva edir [Козлова., Кутафин, 2002. s.131]. Bu hakimiyyət birbaşa referendum yolu ilə və ya nümayəndəli demokratiya vasitəsilə icra edilir. Nümayəndəli demokratiyanın əsas institutlarından biri isə parlamentdir. Parlamentin əsas xüsusiyyəti onun nümayəndəlik təbiətindən irəli gəlir və xalqın təmsilçiliyinə əsaslanır. Yəni, parlament bütövlükdə xalqın maraqlarını və iradəsini ifadə edən ali qurum kimi çıxış edir. Parlamentin əsas məziyyəti onun xalq tərəfindən seçilən və təmsilçilik funksiyasını həyata keçirən nümayəndəli orqan olmasıdır. Başqa sözlə, o, xalqın iradə və maraqlarının daşıyıcısı kimi çıxış edir. Fransız hüquq nəzəriyyəçisi Duguit də bu məqamı təsdiqləyərək, parlamenti millətin rəsmi təmsil orqanı kimi xarakterizə edir [Руссо, 1938. 416]. Bu baxımdan, parlament həm seçki ilə formalaşan nümayəndəli qurum kimi, həm də xalq suverenliyini reallaşdıran ali institut kimi çıxış edir. Parlament nəzarətini şərtləndirən ikinci faktor kimi yalnız onun **qanunlar hazırlamaq** və qəbul etmək funksiyasının olduğunu deyə bilərik. Hakimiyyətin mənbəyi hesab edilən xalqın vahid iradəsi yalnız parlament vasitəsilə hüquqi çərçivəyə salınaraq qanun formasında bərqərar olur. Qəbul edilən qanunların icraedici hakimiyyət tərəfindən icrası zəruridir, eyni zamanda həmin qanunlar məhkəmə hakimiyyəti üçün hüquqi baza rolunu oynayır. Elə bu səbəbdən də parlament yəni qanunverici orqan dövlət idarəçiliyində həm ictimai-hüquqi münasibətlər sistemində, həm də digər hakimiyyət qolları ilə qarşılıqlı əlaqələrdə üstün və aparıcı mövqe tutur. Hüquqi dövlətlərdə, parlament institutu adətən demokratiya və qanunun aliliyinin təmsilçisi kimi qəbul edilir. Xalqın iradəsini əks etdirən bir institut olaraq parlament qəbul etdiyi qanunların icrasına məsul olan digər dövlət hakimiyyəti orqanlarının fəaliyyətinə, xüsusilə icra hakimiyyətinin

fəaliyyətinə laqeyd yanaşa bilməz. Buna görə də, parlamentin digər hakimiyyət qollarının, ilk növbədə icra hakimiyyətinin fəaliyyətinə nəzarət etməsi xalq hakimiyyətinin gerçək mənada təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, yuxarıdakı fikirləri yekunlaşdıraraq belə nəticəyə gəlirik ki, parlamentar nəzarətin nəzəri əsaslarını xalq hakimiyyəti və qanunların aliliyi prinsipləri təşkil edir. Lakin, məsələyə tarixi inkişaf kontekstində yanaşdıqda, deyə bilərik ki, parlament ilk dəfə meydana gəldiyi dövrdə nə İngiltərədə, nə də Fransada xalqın geniş kütləsini təmsil edən qanunverici orqan rolunu oynamışdır. Əksinə, monarxın sadiq torpaq oliqarxiyası və dini elita üzvlərindən ibarət olan bu qurum ilkin mərhələdə məsləhətçi instansiya kimi fəaliyyət göstərmişdir. Çünki, birincisi, orta əsr Avropa əhalisinin yüksək əksəriyyəti təhkimli kəndlilərdən ibarət idi, qadınların seçki hüququnun olmadığı faktını da nəzərə alsaq parlamentin təmsilçilik dairəsinin əhalinin az bir kəsimini əhatə etdiyi fikrini qətiyyətlə söyləmək olar [Eyvazov, 2025. №1, s154]. İkincisi, 1215-ci ildə qəbul olunan “Maqna Karta” monarxın hakimiyyətini qanuna tabe edərək məhdudlaşdırmış, bunula da qanunun aliliyi prinsipini elan etmişdir, lakin parlamentin qanunlar üzərində suverenliyi iki əsr sonra, əsasən 15 ci əsrdə təsdiq olunmuşdur. Tarixi inkişaf spektrindən yanaşdıqda, parlament nəzarətinin tarixi əsası olaraq vergilərin yığılması, dövlət büdcəsinin təsdiqi, eləcə də müharibə və sülh məsələlərinin qərarlaşdırılması kimi parlamentin klassik funksiyalarını göstərmək olar. Həmin funksiyalar antik dövrdə Roma senatının, orta əsrlərdə isə İngiltərə və Fransanın prototip parlamentlərinin hökumətə, xüsusən də monarx və icra başçısına təsir edən əsas mexanizmlərini təşkil etmişdir. Parlamentin bu funksiyaları həm də onların ilkin yaranma səbəbi də olmuşdur. Vergiləri təsdiq etmək üçün çağrılan parlament məhz bu səlahiyyətlərindən istifadə etməklə sonrakı dövrlərdə siyasi hakimiyyət uğrunda monarxlara qarşı mübarizədə təsirli mövqeyə malik olmuşlar. Parlamentin funksional hüquqlarının genişlənməsi və xalqın bütün təbəqələrini təmsil etməsi hakimiyyət uğrunda mübarizəsinin nəticəsi kimi parlament islahatları ilə, seçkilərdə əmlak senzinin ləğvi və qadınlara seçki hüququnun verilməsiylə 19-20- ci əsrlərə təsadüf edir. Beləliklə, fikrimizi yekunlaşdıraraq deyə bilərik ki, parlamentar nəzarətin tarixi əsasları onun ilkin funksiyaları ilə nəzəri əsasları isə hakimyyət uğrunda mübarizə gedişində formalaşmışdır. Parlament nəzarətinin əhəmiyyəti eyni zamanda hakimiyyət bölgüsü prinsipinin C. Lokk və Ş. Monteskye tərəfindən inkişaf etdirilmiş əsas müddəaları ilə də əsaslandırılır. C. Lokk vurğulayırdı ki, insanın təbii hüquqlarının qorunması üçün siyasi hakimiyyətin səlahiyyətləri məhdudlaşdırılmalı və müəyyən hüquqi çərçivəyə salınmalıdır. Bu məqsədə çatmağın ən effektiv yolu isə hakimiyyət qolları arasında bölgünün təmin edilməsidir. O, qanunverici hakimiyyəti əsas və üstün mövqedə görürdü; digər

hakimiyyət qolları isə qanunverici hakimiyyətə tabe olsa da, passiv deyildilər – onlar müəyyən dərəcədə qarşılıqlı təsir imkanına malik idilər. Ş. Monteskye isə bu nəzəriyyəni daha da irəli apararaq hakimiyyətlərin ayrılığı çərçivəsində qarşılıqlı tarazlaşdırma və bir-birini məhdudlaşdırma prinsipinin zəruriliyini vurğulamış və bu konsepsiyanı tam formada sistemləşdirmişdir. Ş. Monteskye bildirirdi ki, əgər qanunvericilik, icra və məhkəmə hakimiyyətləri bir nəfərin və ya eyni orqanın əlində cəmlənərsə, nəticədə azadlıq və hüquqi qaydalar təhlükə altına düşər. Yəni, eyni subyekt həm qanun qəbul edərsə, həm dövlət idarəçiliyini həyata keçirərsə, həm də cinayət və mülki işlərə baxarsa, bu, hakimiyyətin sui-istifadəsinə yol aça bilər. Onun fikrincə, bu üç hakimiyyət arasında qarşılıqlı təsir və əlaqə olduqca mürəkkəb və cavabdeh prosesdir. Bu münasibətlərin əsası isə qarşılıqlı təsir və çəkindirmə mexanizmləri ilə tənzimlənir. Səlahiyyətlərin sui-istifadəsinin qarşısını almaq məqsədilə Monteskye hər bir hakimiyyət qolu üçün digərlərini tarazlaşdıracaq və çəkindirəcək hüquqi alətlərin mövcudluğunu zəruri sayırdı. Məsələn, monarxın (icra hakimiyyətinin rəhbərinin) parlamentin fəaliyyətinə qarşı "veto" hüququna malik olması, hökumətin isə qanunvericilik prosesindən kənarda qalması gərəkdir. Bununla yanaşı, parlamentin də icra hakimiyyətinin fəaliyyətinə müdaxilə edə bilməsi lazımdır. "Qanunların ruhu haqqında" əsərində Ş. Monteskye nümayəndəli orqanın – parlamentin əsas vəzifəsinin qanunvericilik təşəbbüsü göstərmək və bu qanunların icrasına nəzarət etmək olduğunu xüsusi vurğulayırdı [Монтескье, 1955. s.293-296]. J.J.Russo "İctimai müqavilə" əsərində qeyd edirdi ki, dövlətin təşəkkül tapması zamanı cəmiyyət üzvləri arasında bağlanan ictimai müqavilə nəticəsində bir tərəfdən qanun, digər tərəfdən isə həmin qanunu qəbul edən xalqın ümumi iradəsini ifadə edən bir qurum meydana çıxır. Onun fikrincə, əgər xalq suveren orqan olaraq bir araya gələrsə, o zaman bu ümumi iradənin daşıyıcısı olan qurum istənilən hökumət qurumunun yurisdiksiyasına son verməlidir [Руссо, 1938. s.35, 80].

**3.Parlamentin aliliyi**

Beləliklə, klassik hakimiyyət bölgüsü prinsipinə əsaslanaraq, deyə bilərik ki, parlament nəzarətinin nəzəri əsaslarını xalq hakimiyyəti anlayışı, parlamentin nümayəndəli (təmsilçi) xarakteri və qanunverici orqan olaraq fəaliyyəti təşkil edir. Həm xalq hakimiyyətinin, həm də qanunların aliliyi hakimiyyət bölgüsündəki üstün mövqeyini göstərən parlamentin aliliyi ideyasını irəli sürür, bu da öz növbəsində parlamentin icra hakimiyyəti üzərində nəzarətini qanuniləşdirir. Alman filosofu, "hüquqi dövlət" anlayışının banisi İ. Kanta görə, qanunvericilik hakimiyyətinin aliliyi anlayışının qəbul olunması mühümdür, çünki, bu, xalqın vahid iradəsini ən doğru şəkildə əks etdirir [Кант, 1965. s.234]. Parlamentin aliliyi ideyası Böyük Britaniyada və parlamentli

respublikaların çoxunda geniş şəkildə qəbul edilmişdir. İngilis hüquq doktrinasına görə, parlamentin aliliyi prinsipi, xalq tərəfindən seçilən və səlahiyyətlə təmsilçi orqan olaraq fəaliyyət göstərən parlamentin qanunların yaranması, təsdiqlənməsi, dəyişdirilməsi, ləğv edilməsi, bərpa olunması və izah edilməsi kimi məsələlərdə tam müstəqil və nəzarət edilməz hakimiyyətə sahib olması ilə bağlıdır. Klassik ingilis hüquqşünası A.V. Daysi, parlamentin aliliyi prinsipinin onun bütün qanunları qəbul etmək və ya ləğv etmək hüququna malik olmasını ifadə etdiyini qeyd etmişdir; heç bir şəxs və ya təşkilat parlamentin qəbul etdiyi qanunları pozmaq və ya onlara əməl etməmək hüququna malik deyil [Дайси, 1891. s.29]. Digər ingilis hüquqşünasları da parlamentin aliliyi prinsipini oxşar şəkildə izah edirlər. Məsələn, E.Ueyd və Q.Filips qeyd edirlər ki, parlamentin aliliyi aşağıdakı əsas məqamları əhatə edir:

1) qanunvericilik hakimiyyətinin üstünlüyü (yəni, parlamentdən başqa heç bir orqan qanunlar qəbul etmək hüququna sahib olmamalıdır; qanunlar isə hüquqi qüvvə baxımından hər hansı digər normativ-hüquqi aktlardan üstün olmalıdır);
2) dövlət büdcəsini təsdiqləmək və vergiləri təyin etmək hüququ;
3) hökumətin parlament qarşısında kollektiv cavabdehlik daşıması;
4) hakimlərin təyin edilməsi səlahiyyəti;
5) digər paralel hakimiyyət strukturlarının olmaması [Уэйд., Филипс., 1950. s.70].

Azərbaycan konstitutsiyasından irəli gələn müddəalarda da hakimiyyətlərin bölünməsi prinsipi çərçivəsində dövlət hakimiyyətinin budaqları arasında qanunvericilik hakimiyyətinə birincilik verilir [Şükürov, Bakı, 2007, №2 (10), s.312].

**4.Parlamentar nəzarətin mahiyyəti və formaları**

Parlament ölkənin ictimai və siyasi həyatında mühüm məsələlərin müzakirə edilməsi və müxtəlif fikirlərin eşidilməsi üçün əsas bir platforma funksiyasını yerinə yetirir. Bu qurum, vətəndaş cəmiyyətinin müxtəlif təbəqələrinə, müxalifət partiyalarına və azlıq qruplarına öz maraqlarını ifadə etmək və qərar qəbul etmə prosesində iştirak etmək imkanı verir. Bu yolla cəmiyyətin ən vacib və təxirəsalınmaz problemləri üzə çıxarılır və onların həlli yolları təklif olunur. Parlamentin nəzarət funksiyası, xalqın suverenliyi və xalq hakimiyyətinin təbiətindən, eyni zamanda qanunvericilik orqanının nümayəndəlik xarakterindən irəli gəlir. Son dövrlərdə hüquq ədəbiyyatında dövlət hakimiyyətinin dördüncü qolu kimi nəzarət hakimiyyətinin ayrılması təklifləri səsləndirilir. Bu ideyanı ilk dəfə irəli sürən V.Çirkin yazır: “*Hakimiyyətin yeni bir budağı ortaya çıxır*”. O, nəzarət hakimiyyətini təhlil edərkən göstərir ki, bu hakimiyyətin həyata keçirilməsi, müxtəlif məqsədlər üçün birləşmiş və

kompleks orqanlar tərəfindən təmin edilir. Nəzarət orqanları yalnız işlərin gedişatını təhqiq etmək, yoxlamaq və öyrənmək funksiyasını yerinə yetirir, lakin idarəetmə, müəssisə və təşkilatların əməliyyatlarına müdaxilə etmirlər [Чиркин, 1993. №4, s.10]. Parlament, nəzarət fəaliyyətinin vasitəsilə icra hakimiyyəti orqanlarını qanunsuz hərəkətlərdən çəkindirir və beləliklə qanunvericilik ilə icra hakimiyyətləri arasında balans təmin edir [Коломийцев В.Ф. №4.апрель.2008]. Bunun reallaşması üçün qanunverici orqan lazımi hüquqi mexanizmlər və səlahiyyətlərlə təmin olunmalıdır. Ümumi məqsəd, hökumət fəaliyyətinə ictimai və hüquqi nəzarətin təmin edilməsidir, lakin müqayisəli təhlillər göstərir ki, müxtəlif ölkələrin siyasi sistemlərinin xüsusiyyətlərindən, idarəetmə formalarından və dövlət quruluşlarından asılı olaraq parlament nəzarəti fərqli üsullarla həyata keçirilir və parlamentin bu sahədəki səlahiyyətlərinin hədləri də müxtəliflik göstərir. Parlamentli idarəetmə sistemində qanunverici orqan dövlətin birbaşa idarə olunmasında iştirak etmir. Lakin o, idarəetməyə ciddi təsir edir, hökumətin fəaliyyət proqramını müəyyənləşdirir və bu proqramın icrasını təmin etmək üçün qanunla təmin edilmiş vasitələrə malikdir [Соколов, 1912. s.425-426]. Parlament nəzarəti, əsasən hökumətin parlament qarşısında məsuliyyət daşıması ilə əlaqəlidir. Konstitusiyalı monarxiyalarda və həmçinin parlamentli və yarımprezidentli idarəetmə sistemlərinə sahib ölkələrin çoxunun konstitusiyalarında hökumətin parlamentə qarşı cavabdeh olması tələb olunur. Müasir dövlətlərin təcrübəsinə əsasən, parlament nəzarətinin ümumiləşdirilmiş əsas formalarına aşağıdakılar daxildir:

- Hökumət fəaliyyətinin əsas istiqamətlərinin parlamentdə müzakirə edilməsi;
- Dövlət büdcəsinin və onun icrasına dair hesabatların müzakirəsi və təsdiq edilməsi;
- Hökumətin başçısına və ayrı-ayrı üzvlərinə sorğu-suallar verilməsi;
- İnterpelyasiya, etimadsızlıq göstərilməsi, parlament dinləmələri, parlament təhqiqatı, impiçment;
- Parlamentin xüsusi köməkçi orqanları və təyin etdiyi vəzifəli şəxslər vasitəsilə nəzarətin həyata keçirilməsi

Bəzi dövlətlərin konstitusiyalarında parlament nəzarətinin digər aspektləri də nəzərdə tutulmuş ola bilər. Dövlət orqanlarının parlamentə hesabat verməsi, məruzə təqdim etməsi, parlament üzvlərinin icra hakimiyyəti və digər dövlət qurumlarına sorğu göndərməsi, parlamentin və onun komitələrinin müxtəlif məsələlər üzrə dinləmələr təşkil etməsi və digər analoji hallara rast gəlinir.

Sovet İttifaqının dağılması ilə böyük bir coğrafi məkanda tək ideologiyanın hakim olduğu totalitar sistemlər çökmüş, siyasi pluralizm və hakimiyyət bölgüsünə dayanan demokratik sistemlərə keçid prosesi post- sovet ölkələri

üçün prioritet olmuşdur. Bu ölkələrdə əsasən prezidentli və yarı-prezidentlik idarəetmə sistemi üstünlük təşkil edir. Demokratikləşmə baxımından post-kommunist ölkələri arasında fərqlər daha çox prezidentlə parlament arasındakı hakimiyyət mübarizəsindən yaranır və bu tip məsələlər yarı-prezidentlik sistemlərində baş verir. Bəzi yarı-prezident sistemləri faktiki olaraq çox prezident yönümlüdür və burada hakimiyyət parlamentdən daha çox prezidentin əlində cəmlənir. Demokratiyanın hələ də kövrək olduğu bu ölkələrdə hüquqi dövlət və vətəndaş cəmiyyətinə transformasiya üçün parlament institutlarının vacibliyi əhəmiyyətli dərəcədə artmaqdadır.

**5.Nəticə**

Beləliklə, biz klassik hakimiyyət bölgüsü prinsipindən çıxış edərək deyə bilərik ki, parlament nəzarətinin nəzəri əsaslarını xalq hakimiyyəti konsepsiyası, bundan irəli gələn parlamentin nümayəndəli (təmsilçi) xarakteri və qanun yaradan orqan olması kimi amillər təşkil edir. Bu xüsusiyyətləri parlamentin hakimiyyət bölgüsündə aliliyi ideyasını ortaya çıxarır ki, o da öz növbəsində, parlamentin icra hakimiyyəti üzərində nəzarətini legitimləşdirir. Bu baxımdan Parlament nəzarəti, mahiyyətinə görə, icra hakimiyyəti üzərində cəmiyyətin ictimai nəzarət formasını təşkil edir. O, eyni zamanda icra orqanlarının fəaliyyətində şəffaflığın təmin olunmasına xidmət edən vasitələrdən biri kimi çıxış edir. Bu nəzarət forması, hökuməti hüquqi və siyasi məsuliyyətsizlikdən, qanunsuzluqdan və düşünülməmiş qərarlardan çəkindirən əsas tarazlaşdırıcı alət funksiyasını da yerinə yetirir.

## ƏDƏBİYYAT

1. Дайси, А. (1891). *Основы государственного права Англии*. Санкт-Петербург, 281 с.
2. Чанышев, А. М. (1987). *Аристотель*. Москва: Мысль, 224 с.
3. Монтескье, Ш. (1955). *Избранные произведения*. Москва: Заруб. лит-ра, 312 с.
4. Руссо, Ж.-Ж. (1938). *Об общественном договоре*. Москва: Заруб. лит-ра, 185 с.
5. Дюги, Л. (1908). *Конституционное право*. Москва.
6. Кант, И. (1965). *Сочинения* (В 6 т., Т. IV, ч. 2). Москва: Просвещение, 262 с.
7. Уэйд, Е., & Филипс, Г. (1950). *Конституционное право*. Москва: Наука, 186 с.
8. Şükürov, N. H. (2007). Azərbaycan Respublikasının Milli Məclisi qanunverici orqan kimi. *Beynəlxalq hüquq və inteqrasiya problemləri,* (2)10, 32–40.

**9.** Чиркин, В. Е. (1993). Контрольная власть. *Государство и право,* (4), 10–18.
**10.** Коломийцев, В. Ф. (2008). Демократия – это гражданское общество и правовое государство. *Гражданин и право*, (4), Апрель.
**11.** Соколов, К. Н. (1912). *Парламентаризм. Опыт правовой теории парламентарного строя*. Санкт-Петербург: Тип. «Печатный труд», Прасешный пер., 4, 432 с.
**12.** Eyvazov, A. (2025). Parlamentin tarixi izləri və İngiltərə nümunəsində inkişafı. *Tarix və onun problemləri*, (1), 151–159.
**13.** Козлова, Е. И., & Кутафин, О. Е. (2002). *Конституционное право России. Учебник*. Москва, СПАРК, 193 с.

## REFERENCES

**1.** Dicey, A. (1891). *Fundamentals of the Constitutional Law of England*. Saint Petersburg, 281 p. (in Russian)
**2.** Chanyshev, A. M. (1987). *Aristotle*. Moscow: Mysl, 224 p. (in Russian)
**3.** Montesquieu, Sh. (1955). *Selected Works*. Moscow: Foreign Literature, 312 p. (in Russian)
**4.** Rousseau, J.-J. (1938). *On the Social Contract*. Moscow: Foreign Literature, 185 p. (in Russian)
**5.** Duguit, L. (1908). *Constitutional Law*. Moscow. (in Russian)
**6.** Kant, I. (1965). *Collected Works* (In 6 vols., Vol. IV, Part 2). Moscow: Prosveshchenie, 262 p. (in Russian)
**7.** Wade, E., & Phillips, G. (1950). *Constitutional Law*. Moscow: Nauka, 186 p. (in Russian)
**8.** Shukurov, N. H. (2007). The Milli Majlis of the Republic of Azerbaijan as a Legislative Body. *International Law and Problems of Integration,* (2)10, 32–40. (in Azerbaijani)
**9.** Chirkin, V. E. (1993). Supervisory Authority. *State and Law,* (4), 10–18. (in Russian)
**10.** Kolomiitsev, V. F. (2008). Democracy is Civil Society and a Rule-of-Law State. *Citizen and Law*, (4), April. (in Russian)
**11.** Sokolov, K. N. (1912). *Parliamentarism: A Legal-Theoretical Study of the Parliamentary System*. Saint Petersburg: Typography “Printed Labor”, Praseshny Lane, 4, 432 p. (in Russian)
**12.** Eyvazov, A. (2025). Historical Traces of Parliament and Its Development on the Example of England. *History and Its Problems,* (1), 151–159. (in Azerbaijani)
**13.** Kozlova, E. I., & Kutafin, O. E. (2002). *Constitutional Law of Russia: Textbook*. Moscow: SPARK, 193 p. (in Russian)